UOT 94 "19/..."
https://doi.org/10.30546/3006-0346.2025.2.86.502

# XX ƏSRİN 70-Cİ İLLƏRİNDƏ İRAN-AZƏRBAYCAN ARASINDA BEYNƏLXALQ ƏMƏKDAŞLIQ TARİXİNDƏN

**GÜNEL YUSİFOVA**
*Bakı Dövlət Universitetinin*
*Asiya və Afrika ölkələri tarixi kafedrasının*
*doktorantı*

*E-mail: gu_nel@yahoo.com*

XX əsrin 70-ci illərində həm İran, həm Azərbaycan tarixində dönüş nöqtəsi olan hadisələr baş vermişdi. İlk növbədə, onu qeyd etmək istərdim ki, XX əsrdə İranda şah rejiminə qarşı dəfələrlə çıxışlar olmuşdur. Bu çıxışların zirvəsi İranda 1978-1979-cu illərdə inqilabın baş verməsinə səbəb oldu. İnqilab xalq inqilabı idi, çünki şah rejiminin, imperialist idarəçiliyin zülmündən bezən xalq inqilab etməyi çıxış yolu kimi görürdü. İnqilabı dəstəkləyən şiə ruhaniləri üstünlüyü ələ keçirib dini rejim qurdular. İran şahı Məhəmməd Rza Pəhləvinin təşəbbüsü ilə "Ağ İnqilab" adı altında həyata keçirilən bir silsilə islahatlar proqramı şahlıq rejiminin dayaqlarının möhkəmlənməsinə yönəlmiş və ölkədə kapitalizmin inkişafı üçün geniş imkanlar açırdı [6, s.12]. Bu yolla Məhəmməd Rza Pəhləvi ölkədə kapitalizmin tərəqqisinə və şah rejiminin qorunub saxlanılmasına çalışırdı. Şah rejimi fikirləşirdi ki, aparılan dəyişikliklər ölkədə yaranmış sosial çətinlikləri azaldacaq və xalqı şah rejiminin siyasi ideologiyası altında saxlayacaq. Həyata keçirilən tədbirlərə baxmayaraq xalq şahlıq rejimindən təngə gəlmiş və bu rejimin idarəçiliyi altında yaşamaq istəmirdi. 1978-ci ilin noyabrından başlayaraq İranın bütün şəhərlərində şahın hakimiyyətdən getməsi tələb edilir, Xomeyninin hakimiyyətə gəlməsi şüarları ilə çıxış edirdilər.

1979-cu il yanvarın 16-da İran şahı Məhəmməd Rza Pəhləvi müxalif qüvvələrin göstərdiyi təzyiqə görə ölkəni tərk etdi. 18 yanvarda Tehranda mitinq keçirildi. Mitinqdə Xomeyni hökumətin istefaya getməsini və islam respublikasının yaradılmasını tələb etdi. Aparılan mübarizə nəticəsində 1979-cu il aprelin 1-də İran İslam Respublikası yarandıqdan sonra ölkəni yeni qaydalar əsasında sürətli şəkildə qurmağa çalışırdılar. Ölkənin daxili siyasətində aparılan dəyişikliklərlə yanaşı xarici siyasətdə də yeni əlaqələrin qurulmasına və beynəlxalq əməkdaşlıqların inkişaf etdirilməsinə başlanıldı. Bu əməkdaşlıqlar içərisində Azərbaycanla qurulan əlaqələrdən xüsusi danışmaq lazımdır.

Azərbaycan bu dövrdə SSRİ-nin tərkibində idi. Azərbaycanın xarici ölkələrlə əlaqələri müstəqil şəkildə deyil, SSRİ-nin rəhbərliyi altında həyata keçirilirdi. Hələ XX əsrin 20-ci illərində Sovet İttifaqına daxil olan ölkələrdə Xarici İşlər Komissarlıqları ləğv edildi, lakin 1945-ci ildən sonra SSRİ tabeliyində olan respublikalarda Xarici İşlər Nazirlikləri yenidən quruldu. Bu nazirliklər öz fəaliyyətlərini sovet rejiminin nəzarəti altında aparırdı. Ulu Öndər Heydər Əliyev deyirdi: "Azərbaycan Respublikası, Azərbaycan xalqı SSRİ tərkibində 70 il kommunist rejimi şəraitində yaşayıb. Bu 70 illik dövr Azərbaycan xalqının həyatında böyük bir tarixi mərhələni təşkil edir və bu dövr obyektiv yazılmalıdır. Bu dövrdə yazılmış əsərlərdə ideologiyaya və onun konsepsiyasına görə bizim tariximiz təhrif olunmuşdur" [1, s. 186].

XX əsrin 70 ilindən çoxunu Azərbaycan Sovet rejiminin tərkibində keçirib. Bütün xarici siyasətlə bağlı qərarlar Moskvada qəbul olunurdu, Azərbaycan müstəqil xarici siyasət yeridə bilmirdi. Beynəlxalq əlaqələrin qurulması SSRİ hökumətinin xarici siyasəti çərçivəsində aparılırdı. Bu ağır dönəmdə Azərbaycan rəhbərliyində edilən dəyişikliklər Azərbaycanda əsaslı dəyişikliklərə səbəb oldu. XX əsrin son otuz ili və XXI əsrin başlanğıcında Azərbaycana rəhbərlik bilavasitə görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin adı ilə bağlıdır [2, s.22]. 1969-cu ildən başlayaraq Heydər Əliyevin həyat yolunda yeni fəaliyyət dövrü başlayır. Bu dövrdə Azərbaycan SSR dərin iqtisadi, siyasi, mədəni tənəzzül dövrü keçirirdi. Heydər Əliyevin hakimiyyətə gəlməsi Sovet Azərbaycan tarixinə qızıl hərflərlə yazılaraq "yeni dövrün" başlanğıcını qoydu. 1969-cu il 14 iyulda Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə milli oyanış, tərəqqi, özünəqayıdışa dönüş oldu və Azərbaycan tarixində çiçəklənmə dövrü başladı. Uzaqgörən şəxsiyyət, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin hələ XX əsrin son 30 illiklərində həyata keçirdiyi tədbirlər, görülən işlər məhz bugünkü Azərbaycanın təməl daşıdır.

Beynəlxalq əlaqələrin əsas istiqamətləri: XX əsrin 70-ci illərindən başlayaraq Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın xarici ölkələrlə beynəlxalq əlaqələrinin qurulub, inkişaf etdirilməsində

müstəsna xidmətləri olmuşdur. Belə ki, aparılan tədqiqatlar, dövrün mühüm arxiv sənədləri sübut edir ki, XX əsrin 60-80-ci illərində Avropa və Asiya ölkələri ilə qurulan beynəlxalq əməkdaşlıq əlaqələri Ulu Öndər Heydər Əliyevin böyük siyasi fəaliyyəti ilə bağlıdır. Ümumilikdə bu dövrün beynəlxalq əlaqələrindən danışarkən qeyd etmək lazımdır ki, bu əlaqələr çoxşaxəli olub bir neçə sahəni özündə əhatə etmişdi. Buraya ixtisaslı mütəxəssislərin müxtəlif ölkələrə dəvət alması, mədəniyyət, incəsənət, idman əlaqələrinin inkişaf etdirilməsi, sərgilərdə Azərbaycanın tanınmış rəssamlarının öz əsərləri ilə iştirak etməsi, beynəlxalq festivallarda Azərbaycanın incəsənət xadimlərinin iştirak etməsi, xarici ölkələrə nümayəndə heyətlərinin göndərilməsi, təhsil sahəsində yüksək ixtisaslı mütəxəssislərin yetişdirilməsi üçün onların xarici ölkələrə göndərilərək orada təhsil almasını və digərlərini göstərmək olar.

İran və Azərbaycan arasında beynəlxalq əlaqələrin qurulması, əməkdaşlıq bildiyimiz kimi Sovet İttifaqı ilə əlaqələr şəraitində regionun iqtisadi və mədəni inkişaf mövzularından idi. Çünki Azərbaycan müstəqil xarici siyasət yeridə bilmirdi. O, İranla siyasi, hərbi əməkdaşlıq qura bilmirdi. Lakin 1969-cu ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi, onun mərkəzdəki nüfuzu Azərbaycan SSR-in beynəlxalq əlaqələrdə fəal iştirak etməsinə səbəb oldu. Azərbaycanla İran arasında XX əsrin 70-ci illərində qurulan beynəlxalq əməkdaşlıqdan danışarkən ilk olaraq ticari əlaqələri qeyd etmək lazımdır. Bildiyimiz kimi Azərbaycan təbii resursları ilə əzəldən zəngin olan regiondur. Bu qonşu ölkələrin daim diqqətini çəkib. Azərbaycanla İran arasında sənaye və kənd təsərrüfatı məhsullarının ticarəti genişlənmişdi. 1969-1982-ci illərdə Moskvanın maraqlarına uyğun olmasa da Heydər Əliyev İran və Türkiyə ilə iqtisadi və ticarət əlaqələrinin inkişafına mühüm əhəmiyyət verirdi [7]. Çünki İran iqtisadiyyatı üçün vacib olan resurslar, neft, qaz və digər xam maddələr Azərbaycanda zəngin idi. İran da öz sərhəddində yerləşən, belə zəngin təbii ehtiyatlara malik ölkə ilə öz ticari əlaqələrini genişləndirməyə çalışırdı. Nəzərə alsaq ki, bu dövrdə Azərbaycanın xarici ticarət əlaqələri vahid mərkəzdən yəni sovet hökuməti tərəfindən idarə olunurdu. Zamanla Sovet İttifaqının tətbiq etdiyi məhdudiyyətlər ticarətə öz mənfi təsirini göstərirdi. Qısaca onu qeyd etmək lazımdır ki, XX əsrin 70-ci illərində Azərbaycan SSR ilə İranın bazarlarına həm kənd təsərrüfatı məhsulları, həm sənaye məhsulları daxil olmuşdu. İranla ticarət münasibətləri "Şərqxariciticarət" Ümumittifaq birliyinin Bakı şöbəsi vasitəsilə aparılmışdı. Azərbaycan SSR İranla yanaşı bir sıra Asiya və Afrika ölkələrində metallurgiya, kimya zavodlarının tikilməsində iştirak etmişdi.

Beynəlxalq əməkdaşlıqlar içərisində mədəni əlaqələr xüsusi yer tutmuşdu. Mədəni əlaqələrin inkişafı isə azərbaycanlılarla iranlılar arasında etnik əlaqələrin güclü olmasının nəticəsi idi. Həmçinin Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti, İranla Mədəni Əlaqələr Cəmiyyəti (19.10.1945), SSRİ-İran Mədəni Əlaqələr Cəmiyyətinin (1963) respublika şöbəsi və digərləri ölkələrarası əməkdaşlığın yükünü daşıyan əsas qurumlar olmuşdular [3, s.482].

XX əsrin 70-ci illərində Azərbaycana müxtəlif ölkələrdən olan dövlət xadimlərinin siyasi səfərləri artmışdı. Bu ölkələr içərisində İranın da adını qeyd etmək lazımdır. İran İslam Respublikasının siyasi nümayəndələrinin Azərbaycan SSR-ə gəlməsi hər iki ölkə arasında beynəlxalq əlaqələrin genişlənməsinə şərait yaratmışdır. Çünki beynəlxalq əməkdaşlıq çərçivəsində xarici mədəni münasibətlər mühüm əhəmiyyət kəsb edirdi.

Azərbaycanın beynəlxalq aləmdə siyasi, mədəni əlaqələrinin inkişafı və xarici ölkələrlə əməkdaşlıq Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra olmuşdu. Azərbaycanla İran arasında beynəlxalq mədəni əlaqələrin inkişafında 1970-ci illərdə rəsmi səfərlərin olması da təsir etmişdi. Arxiv sənədlərini tədqiq edən tarixçilərin qeyd etdiyinə görə İran şahının həyat yoldaşı Fərəh Pəhləvi Azərbaycana səfər etmiş, Bakı ilə yaxından tanış olmuşdu. Bu səfər iki ölkə arasındakı münasibətlərin yaxşı olmasının göstəricisi idi. Onlar Azərbaycan Dövlət Opera və Balet Teatrında, Bakı şəhərinin tarixi yerlərində, Azərbaycan Dövlət Konservatoriyasında, Azərbaycan Tarix muzeyində, C. Qaryağdının emalatxanasında oldular [4, s.446]. Azərbaycan nümayəndə heyətinin də aktiv səfərləri olmuş, bu səfərlər 70-ci illərin sonlarında zəifləməyə başlamışdı.

Heydər Əliyev bir sıra müsəlman ölkələrinin Bakıda konsulluqlarının açılmasına xüsusi diqqət verirdi. Belə ki, 1971- ci ildə Bakıda İranın, 1972-ci ildə isə İraqın konsulluğu açıldı [8, s.149]. Konsulluğun açılması ilə yanaşı hər iki ölkə arasında rəsmi səfərlər də olmuşdu. Bu səfərlər çərçivəsində Azərbaycanın bir sıra sahələrdə məsələn elm, təh-

sil, mədəniyyətdə əldə etdiyi nailiyyətlərdən danışılırdı. Digər tərəfdən Azərbaycan SSR-İran arasında əlaqələrin inkişaf etdirilməsi Cənubi Azərbaycanda yaşayan azərbaycanlıların hüquqlarına diqqət yetirilməsi və 1828-ci ildə Türkmənçay müqaviləsinə görə parçalanmış vətənin birləşdirilməsi ilə əlaqədar idi. Bu məqsədlə, Heydər Əliyev hakimiyyətdə olduğu illər ərzində cənubda yaşayan soydaşlarımızın problemlərinin həlli yolunda işlər görmüşdü. Daha çox ziyalılara diqqət göstərmiş, bu tarixi problemin aradan qaldırılması üçün elmi tədqiqatların aparılmasına, dövrün şair, ziyalı və yazıçılarını bu mövzuda yazmağa səsləyirdi.

Azərbaycanla İran arasında beynəlxalq mədəni əlaqələrdən danışarkən burada ədəbiyyat əlaqələrindən xüsusi danışmaq lazımdır. Bu əlaqələrə kitab sərgiləri, dövrün görkəmli incəsənət nümayəndələrinin əlaqələri daxildir. Belə ki, 70-ci illərin ilk illərindən başlayaraq Azərbaycandan İrana çoxlu kitablar göndərilmişdir. Bu da Azərbaycan kitabına olan ehtiyacın göstəricisi kimi göstərmək olar. Eyni zamanda, İrandan da Azərbaycan kitabxanalarına kitablar göndərilirdi. Bu kitablar müxtəlif mövzularda yazılmış, eləcə də Şərq poeziyasına aid idi. Azərbaycanda İran şairlərinin yazdığı əsərlər həm Azərbaycan, həm rus dilinə tərcümə olunmuşdu. 1972-ci ildə Azərbaycan "Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti" dünyanın 62 ölkəsinə 19000 nüsxə kitab, jurnal, albom göndərmişdir. Bunların xeyli hissəsi qonşu İranın payına düşürdü [5, s. 91]. Kitab və jurnalların göndərilməsi İran tərəfindən də həyata keçirilirdi. 500 dən çox kitab 1971-1973-cü illərdə Azərbaycan kitabxanalarına verilmişdi.

1973-cü ilin aprelində məşhur fizik-alim, Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti Həsən Abdullayev Tehran və Məşhəd universitetlərinə səfər etmişdi. Həsən Abdullayev İranın elm və ali təhsil naziri doktor Hüseyn Kazımzadə ilə görüş zamanı bu ölkədə elmi kadrların hazırlanmasına azərbaycanlı mütəxəssislərin cəlb edilməsi, birgə elmi-tədqiqat işlərinin aparılması perspektivləri müzakirə olunmuşdur [5, s. 83]. Qarşılıqlı şəkildə hər iki ölkənin alim professor heyəti bir-birinə səfər edirdilər. Bu səfərlər içərisində Şamaxı rəsədxanasında da olmuşdular. Bu əlaqələr inqilabdan sonra xeyli azaldı. Bunun səbəbi İranın SSRİ-yə inanmamağı, təhlükə mənbəyi kimi baxması olmuşdu.

XX əsrin 70-ci illərinin mədəni əlaqələrindən danışarkən radio və televiziya, eləcə də kino və teatr sahəsindəki qarşılıqlı əməkdaşlıqdan danışmaq lazımdır. Azərbaycanın bir sıra filmləri dünyanın bir çox ölkəsində nümayiş etdirilmişdi. Bu ölkələr sırasında İranın da adını qeyd etmək lazımdır. Azərbaycanla yanaşı İran bədii filmləri 1971-ci ildə Azərbaycanın bir sıra şəhərlərində, məsələn Bakı və Sumqayıtda nümayiş edilmişdi. Bu kino festivalları növbəti illərdə də olmuşdu. Film nümayişləri ilə yanaşı kinematoqrafçılar 1972-ci ildə İrana ezam olunmuşdular. Onlar öz bilik və təcrübələrini bir-birilə bölüşmüşdülər. Kinematoqrafiya sahəsində əldə olunan qarşılıqlı uğurlar XX əsrin 70-ci illərinin Azərbaycan SSR-İran beynəlxalq mədəni əlaqələrinin inkişafına xüsusi töhfə vermişdi. Yuxarıda qeyd etdiyimiz kimi, kino ilə yanaşı televiziya və radio sahəsində də iki ölkə əməkdaşlıq edirdi. Televiziya və radio sahəsindəki əməkdaşlığı inkişaf etdirmək üçün 1970-ci ildə İran və Azərbaycanın televiziya və radio verilişlərinin baş direktorları bir sıra razılaşmalar əldə etdilər. Rəssamlıq sahəsində də qarşılıqlı anlaşmalar olmuş, dəfələrlə sərgilər keçirilmişdi. Memarlıq sahəsində İran ilə Azərbaycan arasında əlaqələrin inkişafını 1970-ci ildə memar M.A.Hüseynovun İranda keçirilən konqresdə çıxışı ilə göstərmək olar. Bu çıxışında Hüseynov İran memarlığının müasir dövr memarlıqla birgə vəhdəti mövzusundan bəhs etmişdi. Növbəti illərdə də keçirilən beynəlxalq konqreslərdə də M.A.Hüseynov çıxış etmişdir. Azərbaycanlı memarın konqresdəki çıxışları böyük rəğbətlə qarşılanmış və memarlıq sahəsində əlaqələrin genişlənməsinə şərait yaratmışdı. Bildiyimiz kimi, digər sahələrdə olduğu kimi, incəsənt sahəsində də əlaqələr 1978-1979-cu illərdə inqilabdan sonra zəiflədi.

XX əsrin 70-ci illərinin beynəlxalq əlaqələrindən danışarkən idman və turizm sahəsini də qeyd etmək lazımdır. Çünki hələ XX əsrin əvvəllərindən başlayaraq Sovet İttifaqı qonşu və digər ölkələrlə idman yarışları keçirərək əlaqələrini genişləndirirdi. Bu ənənə XX əsrin 70-ci illərində də davam etmişdi. İranda keçirilən görüşlərdə Azərbaycan idmançıları iştirak etmişdilər. İdman növlərindən yüngül atletika, voleybol, futbol, şahmat sahəsində yarışlarda iştirak etmişdi. 1970-ci illər ərzində Azərbaycan idmançılarınn beynəlxalq yarışlarda iştirakı xeyli dərəcədə artmışdı. İki ölkə idmançıları arasında dostluq münasibətləri yaranmışdı. Bu əlaqələr mədəni əməkdaşlığa da öz müsbət təsirini göstərmişdi. İdmanla yanaşı turizm sahəsinin də inkişaf etdiril-

məsi gözə çarpırdı. Amma bir məsələni qeyd etmək lazımdır ki, Sovet hökuməti turizm əlaqələrinin inkişafına xüsusi fikir verməmişdi. Baxmayaraq ki, turizmin inkişafı üçün lazım olan bütün resurslara malik idi. Turizm sahəsindəki əksikliklər, çatışmazlıqlar onun inkişafını ləngidən cəhətlər idi. Lakin SSRİ-də turizmin zəif inkişaf etməsi o demək deyildir ki, Azərbaycan SSR-in turizm sahəsində digər ölkələrlə, eləcə də İranla iş birlikləri olmamışdı. Azərbaycanın zəngin resurslarının, müalicəvi kurortlarının olması burada turizmin inkişaf etdirilməsinə şərait yaratmışdı. 1960-cı illərdə iki ölkə arasında turizm əlaqələri xeyli inkişaf etmişdir. Bu da iki ölkədə keçirilən tədbirlər sayəsində olmuşdu. Lakin 1970-ci illərdə turizm sahəsində durğunluq yaşanır. Daha sonra inqilab, İranda respublika quruluşunun yaradılması, müharibələr turizm sahəsindəki əlaqələrin sonlanmasına səbəb olur. Beynəlxalq mədəni əlaqələrin inkişafında yuxarıda saydığımız sahələrdən fərqli olaraq turizm sahəsində əməkdaşlıq zəif idi. Bunun əsas səbəblərindən biri Sovet hökuməti faktorunun olması və bütün sahələrin mərkəzdən idarə olunması idi.

**Nəticə**

Mədəni əlaqələrin inkişafı inteqrasiya əlaqələrini dərinləşdirir. Fərqli mədəniyyətlərin bir-biri ilə təcrübə mübadiləsi etməsi tərəflərin mədəniyyətinin zənginləşməsinə səbəb oldu. Belə ki, İranla olan beynəlxalq əməkdaşlıq 1978-1979-cu illər inqilabı zamanı zəiflədi. Bu İranın Sovet İttifaqına etibar etməməsinin nəticəsi idi. İran öz xarici siyasətində Avropa və Sovet hökumətini deyil, özünün irəli sürdüyü xətti müdafiə edirdi. 1979-cu ildə İran İslam Respublikasının yaranması ilə inqilab dövründə zəifləyən əlaqələr yeni mərhələyə qədəm qoyur. Azərbaycanla İranın mədəni əlaqələrinin zəngin və çoxəsrlik tarixi onun möhkəm təməllərə dayandığını göstərir. Hər iki ölkənin zəngin mədəni irsi, onların mədəniyyətlərinin qarşılıqlı əlaqələri bu münasibətlərin müasir dövrdə də davam etməsinə səbəb olmuşdu.

**ƏDƏBİYYAT SİYAHISI:**


*1. Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. 8-ci kitab Bakı. Azərnəşr. , 1997, s. 368*

*2. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı. Təhsil. , 2004, s.472*

*3. İsmayıl M. Dövlətlərarası münasibətlər və Azərbaycan (aprel 1920-oktyabr 1991-ci illər). Bakı. Bakı Universiteti Nəşriyyatı, 2008, s. 516*

*4. Qasımlı M. C. Heydər Əliyev- istiqlala gedən yol (1969-1987-ci illər). Bakı. Bakı Universiteti Nəşriyyatı, 2006, s. 608*

*5. Qəniyev H. Q. SSRİ-İran iqtisadi və mədəni əlaqələrində Azərbaycanın iştirakı. Bakı. Mütərcim., 2017, s. 152*

*6. Məmmədzadə G. İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında mədəni əlaqələrin inkişafı. Bakı. Bakı Universiteti Nəşriyyatı., 2004, s. 170*

*7. Международные связи Азербайджана в документах. Баку. 2017, сер. 10-14.*

*8. Zeynalov İ. X. Azərbaycanın milli dövlətçilik tarixində Heydər Əliyev zirvəsi: Dahi şəxsiyyətin şərəfli ömür yolu. Bakı- "Füyuzat"- 2024, s. 656*


**XÜLASƏ**


Bütün zamanlarda ölkələrarası beynəlxalq əməkdaşlığın tərkib hissəsi olan mədəni əlaqələr mühüm əhəmiyyət kəsb edib. Dünyada sosial-mədəni bağlılığı, əlaqələri inkişaf etdirmək həmişə vacib məsələlərdən biri olub. XX əsrin 70-ci illərində Azərbaycan SSR Sovet İttifaqının tərkibində olduğu üçün beynəlxalq əməkdaşlıqları əsasən sovetlərin ümumi siyasəti daxilində baş verirdi. Bu dövrdə Azərbaycan SSR Asiyanın müxtəlif ölkələri ilə mədəniyyət sahəsində əlaqələr qurmuşdur. Onlardan İran, Pakistan, Hindistan və Əfqanıstanı misal göstərmək olar. Bu məqalədə biz Azərbaycan SSR-in XX əsrin 70-ci illərində İranla olan beynəlxalq əlaqələrindən bəhs edilir. 1969-cu ildə Heydər Əliyevin hakimiyyətə gəldiyi dövrdə baş verən proseslər və ən əsası Azərbaycanın İran ilə qurulan mədəni əlaqələri, mədəniyyətimizin inkişafında böyük rol oynayan sahələr-təhsil, idman, turizm, kinematoqrafiya, xalçaçılıq, rəssamlıq və digər sahələrin təbliği ilə əldə olunan nailiyyətlərdən bəhs olunur.


**Açar sözlər:** *Heydər Əliyev, SSRİ, İran, beynəlxalq əməkdaşlıq, mədəniyyət, əlaqələr.*

## ИЗ ИСТОРИИ МЕЖДУНАРОДНОГО СОТРУДНИЧЕСТВА ИРАНА И АЗЕРБАЙДЖАНА В 70-Е ГОДЫ XX ВЕКА


**РЕЗЮМЕ**

Культурные связи, являющиеся частью международного сотрудничества между странами, всегда имели важное значение. Развитие социальных и культурных связей и отношений в мире всегда было одним из важных вопросов. Поскольку в 1970-х годах Азербайджанская ССР входила в состав Советского Союза, ее международное сотрудничество в основном осуществлялось в рамках общей советской политики. В этот период Азербайджанская ССР установила культурные связи с различными странами Азии. К примерам таких стран относятся Иран, Пакистан, Индия и Афганистан. В этой статье мы поговорим о международных связях Азербайджанской ССР с Ираном в 70-х годах 20 века. Будут обсуждаться процессы, происходившие в период прихода к власти Гейдара Алиева в 1969 году, и самое главное - культурные связи, установившиеся между Азербайджаном и Ираном, достижения, достигнутые путем развития сфер, играющих важную роль в развитии нашей культуры - образования, спорта, туризма, кинематографии, ковроткачества, живописи и других сфер.



**Ключевые слова:** *Гейдар Алиев, СССР, Иран, международное сотрудничество, культура, связи.*


## FROM THE HİSTORY OF İNTERNATİONAL COOPERATİON BETWEEN IRAN AND AZERBAIJAN IN THE 70S OF THE 20TH CENTURY


**SUMMARY**

Cultural relations, which are an integral part of international cooperation between countries, have always been of great importance. Developing socio-cultural ties and relations in the world has always been one of the important issues. Since the Azerbaijan SSR was part of the Soviet Union in the 70s of the 20th century, its international cooperation mainly took place within the general policy of the Soviets. During this period, the Azerbaijan SSR established cultural relations with various countries of Asia. Examples of these include Iran, Pakistan, India and Afghanistan. In this article, we will talk about the international relations of the Azerbaijan SSR with Iran in the 70s of the 20th century. The processes that took place during the period when Heydar Aliyev came to power in 1969 and, most importantly, the cultural relations established between Azerbaijan and Iran, the achievements achieved by promoting areas that play a major role in the development of our culture - education, sports, tourism, cinematography, carpet weaving, painting and other areas will be discussed.



**Keywords:** *Heydar Aliyev, USSR, Iran, international cooperation, culture.*